# Sabunçu rayonu: Yeni hədəflərə doğru



■ ***Sabunçu rayonunda ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir.***

İclasda geniş məruzə ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Adil Vəliyev bildirmişdir ki, yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı 2015-ci ildə görülmüş işləri təhlil etmiş və sonrakı dövrdə həyata keçiriləcək iqtisadi siyasətin əsas istiqamətlərini müəyyənləşdirmişdir. Sonra natiq ölkə başçısının çıxışından əsas məqamları tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Məruzədə göstərilmişdir ki, 2015-ci il ərzində Sabunçu rayonunun iqtisadi və sosial sahələrində də dinamik inkişaf davam etmiş, müsbət nəticələr əldə edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2014-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş “2014-2016-cı illərdə Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” çərçivəsində və digər mənbələr hesabına 2015-ci il ərzində rayonda bir çox mühüm sosial və iqtisadiyönümlü obyektlərin tikintisi, yolların salınması, qaz, istilik, elektrik enerjisi, su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılması, təhsil, səhiyyə obyektlərinin, yaşayış binalarının təmiri, küçə və yolların yenidən qurularaq abadlaşdırılması istiqamətində böyükhəcmli işlər görülmüşdür.

Belə ki, Sabunçu qəsəbəsindəki 148 saylı tam orta məktəbin qəzalı vəziyyətdə olan köhnə korpusu sökülərək yerində 528 yerlik yeni tədris korpusu tikilmiş, Bakıxanov qəsəbəsində Sabunçu rayon və 2 saylı Bakı inzibati-iqtisadi məhkəmələrinin binalarında tikinti işləri başa çatdırılmışdır. Ötən ilin sentyabrın 15-də və noyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə həmin obyektlərin açılış mərasimi keçirilərək istifadəyə verilmişdir. Bundan başqa, Bakıxanov qəsəbəsində “Stimul Hospital” tibb mərkəzinin yeni binasının tikintisi, Zabrat qəsəbəsində 282 saylı körpələr evi-uşaq bağçasında əsaslı təmir işləri də başa çatdırılaraq istifadəyə verilmişdir.

Hazırda rayon icra hakimiyyəti başçısının qəsəbələr üzrə nümayəndələri və bələdiyyələrlə birgə qarşılıqlı razılıq əsasında hər qəsəbədə daxili imkanlar hesabına bir neçə küçənin abadlaşdırılması və asfalt örtüyünün vurulması işlərinə başlanmışdır. Bu tədbir ilin sonuna kimi davam etdiriləcək.

Adil müəllim onu da bildirmişdir ki, rayonun Sabunçu, Ramana, Zabrat, Balaxanı və Bakıxanov qəsəbələrindəki ictimai mənzil fondunda bir sıra yaşayış binalarının istismar müddətini keçərək qəzalı vəziyyətə düşməsi narahatlıq doğururdu. Bununla bağlı müraciətimiz əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 oktyabr 2015-ci il tarixli qərarına əsasən rayon ərazisində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, qəzalı vəziyyətdə olan binaların sökülərək yerində müasir tələblərə cavab verən yeni binaların tikilməsi ilə bağlı rayon icra hakimiyyətinə “Pilot” layihə formatında 5 il müddətinə əlavə səlahiyyətlər verilmişdir. Artıq bu qərarın icrası ilə bağlı müvafiq tədbirlər görülmüş, həmin qəsəbələrdə çoxmənzilli, qəza təhlükəsi ehtimalı olunan binaların siyahısı tərtib edilərək rəy verilməsi üçün əlaqədar dövlət orqanları və nəzarət qurumlarının mütəxəssislərindən ibarət komissiyaya göndərilmişdir. Hazırda 35 yaşayış binası üzrə müvafiq rəylər verilmişdir. Bu rəylər əsasında kəskin qəza vəziyyətində və uçma təhlükəsi olan Ramana və Bakıxanov qəsəbələrindəki 5 binadan sakinlər köçürülərək yerində razılaşdırılmış layihələrə uyğun yeni binaların inşasına başlanılmışdır.

2015-ci ilin noyabr ayının 26-da Nardaran qəsəbəsində baş verən hadisələrdən bəhs edən natiq bildirmişdir ki, bu, respublikada ictimai-siyasi sabitliyi pozmaq, təxribatlar, kütləvi ixtişaşlar, terrorçuluq aktları törətməyi planlaşdıran və din pərdəsi altında fəaliyyət göstərən bir qrup silahlı – cinayətkar dəstə tərəfindən planlaşdırılmışdı. Görülmüş tədbirlər əsasında həmin dəstə zərərsizləşdirilərək məsuliyyətə cəlb edilmiş və artıq qəsəbədə əmin-amanlıq tam bərpa olunmuşdur.

Qəsəbədə əhalini narahat edən sosial məsələlərin həllinə, geniş abadlıq işlərinin, küçə və yolların yenidən qurulmasına başlanmışdır. Qısa müddət ərzində orada Sabunçu Rayon Polis İdarəsinin 42 saylı polis bölməsi və elektrik enerji təchizatı və satışı idarəsinin bölməsi üçün inzibati binalar tikilib istifadəyə verilmişdir. Dövlət Təhlükəsizlik Xidməti Sabunçu rayon idarəsinin və Sabunçu dövlət yanğından mühafizə hissəsinin qəsəbədə yeni bölmələri üçün inzibati binaların tikintisi isə başa çatmaq üzrədir. Bundan əlavə, rayon icra hakimiyyəti başçısının xüsusi sərəncamına əsasən, Nardaran qəsəbəsinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı hazırlanıb təsdiq edilmişdir.

Qeyd olunmuşdur ki, rayon icra hakimiyyəti 2015-ci il ərzində öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi “Yerli İcra Hakimiyyətləri haqqında” Əsasnaməyə və mövcud qanunvericiliyin tələblərinə uyğun quraraq vətəndaşların hüquq və mənafelərinin müdafiəsi, rifah halının yaxşılaşdırılması, sosial problemlərinin həlli üzrə konkret tədbirlər həyata keçirmişdir. 2015-ci ildə icra hakimiyyəti aparatına 4832 ərizə və şikayət, 2384 məktub və xidməti sənəd daxil olmuşdur ki, bu da 2014-cü ildəkindən ümumilikdə 3,2 faiz azdır. O da qeyd edilməlidir ki, il ərzində daxil olmuş ərizə və şikayətlərin sayı 6,6 faiz azalmışdır. İcra hakimiyyətində il ərzində vətəndaşların mütəmadi qəbulu təşkil edilmiş, keçirilmiş 20 səyyar görüşdə isə 2800-dən çox sakin iştirak etmişdir. Vətəndaşların müraciətlərinə yerində baxılaraq müvafiq kömək göstərilmiş, izahatlar verilmişdir.

Sabunçu Rayon İcra Hakimiyyətinə daxil olmuş müraciətlər əsasında il ərzində vətəndaşlara ümumilikdə 200 min manatdan çox maddi yardım göstərilmişdir. Hər il olduğu kimi, əlamətdar günlər münasibətilə rayonda silsilə tədbirlər keçirilmişdir.

Yığıncaqda “Şirin” MMC-nin müdiri Tahir Əliyev, rayon mənzil kommunal təsərrüfat birliyinin rəisi Oruc Əhmədov, rayon polis idarəsinin rəisi Eldar İlyasov, Dövlət Təhlükəsizliyi Xidməti Sabunçu rayon idarəsinin rəisi Faiq Nuriyev, YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abbasquliyeva, Prezident Adminstrasiyasının məsul işçisi Tağı Tağıyev çıxış edərək ötən il rayonda həyata keçirilən tədbirlərdən bəhs etmiş və qarşıda duran vəzifələrdən danışmışlar.

Yığıncaqda Milli Məclisin deputatı Dilarə Cəbrayılova iştirak etmişdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***